UOT 631.14

# AQRAR SAHƏNİN İNNOVASİYALI İNKİŞAFININ İQTİSADİ ƏSASLARI VƏ STRATEGİYASININ REALLAŞDIRILMASI MEXANİZMİ

**Məlahət Firqət qızı Rəhimova**
Mingəçevir Dövlət Universiteti
Azərbaycan Dövlət Aqrar Universitetinin doktorantı
malahat.rahimova@mdu.edu.az

***Xülasə:*** *Aqrar sahədə innovasiya strategiyasının həyata keçirilməsi bu strategiyanın formalaşdırılması və reallaşdırılması ilə bağlı zəruri fəaliyyətlərin əlaqələndirilməsini, prosesə sistemli yanaşılmasını nəzərdə tutur. İnnovasiya strategiyasının reallaşdırılmasına sistemli yanaşmanın məzmunu innovasiya fəaliyyətinin kompleks şəkildə dərk edilməsindən, əsas məqsəd və vəzifələrin müəyyən edilməsindən və strukturlaşdırılmasından, qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi mexanizmindən ibarətdir. Bu prosesdə innovasiya strategiyasının effektivliyinin qiymətləndirilməsi xüsusi önəm kəsb edir.*

***Açar sözlər:*** *innovasiya potensialı, tələbat, keyfiyyət, infrastruktur, modernləşdirmə, səmərə, innovasiya strategiyası, effektivlik, qiymətləndirmə*

## Giriş

Ölkə iqtisadiyyatının, o cümlədən aqrar sahənin innovasiyalı inkişafının təmin olunması iqtisadi siyasətin prioritetlərindən hesab edilir [1]. İnnovasiya sahəsində mövcud problemlərin həlli, bu fəaliyyətin tənzimlənmə mexanizminin müasir tələblər baxımından qurulması ölkənin sosial-iqtisadi inkişafı baxımından xüsusilə əhəmiyyətlidir. Bu məqsədlə innovasiya fəaliyyətinin tənzimlənməsi mexanizminin təşkilində aşağıdakı amillərin nəzərə alınması zəruridir:

- ölkənin elmi-texniki tərəqqinin yüksəldilməsi;
- innovasiya fəaliyyəti üzrə infrastruktur sisteminin yaradılması;
- istehsal, elm-təhsil sisteminin səmərəliliyinin təmin edilməsi;
- elmi-texniki tərəqqi və innovasiya fəaliyyətinin inkişafı ilə bağlı stimullaşdırıcı tədbirlərin formalaşdırılması.

Aqrar sahənin innovasiyalı inkişafı bir-biri ilə əlaqəli və bir-birindən asılı elementlər toplusuna malik elementlərdən asılı olduğundan, innovativ inkişaf strategiyasının həyata keçirilməsi prosesinə sistem yanaşması nöqteyi-nəzərindən baxmaq daha məqsədəuyğundur.

## Aqrar sahənin  inkişaf perspektivləri

Aqrar sahədə innovasiya fəaliyyəti mütərəqqi elmi-texniki nailiyyətlərin istehsalata tətbiqi sayəsində həyata keçirilməklə, aqrar iqtisadiyyatı sabitləşdirmək və inkişaf etdirməkdə həlledici rol oynayır. Elmi biliyin təcrübədə reallığa çevrilməsi obyektiv proses olmaqla, dövri innovativ yenilənmə qanunauyğunluqlarına malikdir və mühüm elmi istiqamət kimi özünü göstərir. İnnovativ inkişafın əsasını maksimum mənfəət əldə etmək məqsədilə innovativ fəaliyyəti həyata keçirən təsərrüfat subyektləri yaradır [2].

Araşdırmalar göstərir ki, innovativ fəaliyyətin qiymətləndirilməsində yalnız müsbət nəticələr əldə edildikdən sonra onun iqtisadi qiymətləndirilməsinə keçmək lazım gəlir. Səmərənin sadalanan bütün növləri, əslində iqtisadi səmərəlilik baxımından qruplaşdırılır. Yeniliyin və ya bir sıra innovasiyaların faydalılığı son nəticədə əməyə, vaxta, maddi resurslara və maliyyə resurslarına qənaət etmək imkanları ilə müəyyən edilir ki, bu da məcmu halda ümumi qiymətləndirməni həyata keçirməyə zəmin yaradır.

Araşdırmalar göstərir ki, aqrar sahənin dayanıqlı inkişafı məhz innovasiya fəaliyyətinin elmi-texniki, təşkilati və iqtisadi aspektlərini ehtiva edir. Aqrar sahənin innovativ inkişafının texniki, texnoloji, sosial, ekoloji, enerji, təşkilati və iqtisadi səmərəlilik baxımından qiymətləndirilməsi bir sıra problemləri vaxtında müəyyənləşdirməyə və qabaqlayıcı tədbirlər

hazırlamağa imkan verir. Qeyd edilənlər innovasiyaların tətbiqinin nəticələrini öz meyar və göstəricilərinə görə qiymətləndirilməsini tələb edir [4, s. 115]. Bu ilk növbədə onunla bağlıdır ki, davamlı olaraq qəbul edilən qərarların əsaslandırılmasına və iqtisadi hesablamalara tələb artır. İnnovasiyanın iqtisadi səmərəsinin elm və istehsalın birgə fəaliyyətinin nəticəsi olduğunu nəzərə alsaq, elmi-texniki fəaliyyətin iqtisadi əsaslandırılması onun inkişafının bütün mərhələlərində həyata keçirildiyini qeyd edə bilərik və bu proses, innovasiyalarla bağlı ideyaların yaranmasında özünü göstərir.

Beləliklə, innovasiya fəaliyyətinin iqtisadi əsaslandırılmasında onun bütün gözlənilən müsbət və mənfi cəhətləri müəyyən edilir və qiymətləndirilir. Bundan sonra innovasiya layihələrinin aktiv reklamı, təşviqi, istehlakçı və investorlar üçün innovasiya bazarında adekvat tələbatın formalaşdırılması təmin edilməlidir. Tədqiqata əsaslanaraq, aqrar sahədə innovativ fəaliyyətin iqtisadi əsaslandırılmasında bir sıra amillərin nəzərə alınmasının zəruriliyini qeyd etmək olar. Bu baxımdan innovasiya tətbiqinə təsir edən amilləri iqtisadi, istehsal və digər amillər şəklində qruplaşdırmaq olar.

**Aqrar sahədə innovativ fəaliyyətə təsir edən amillər**

İqtisadi amillərə aşağıdakılar daxildir:
- innovasiya tətbiqi üçün subyektlərin daxili vəsaitləri;
- dövlət tərəfindən maliyyə yardımları;
- məhsullara ödəniş qabiliyyətli tələbat;
- yeniliklərin dəyərinin səviyyəsi;
- iqtisadi risklər;
- bəzi məhsullar üzrə xərclərin ödənilməsi müddətlərinin uzun dövrü əhatə etməsi.

İstehsal amillərini aşağıdakılarla xarakterizə etmək olar:
- müəssisənin innovasiya potensialı;
- ixtisaslı işçilər:
- yeni texnologiyalar haqqında informasiya;
- müəssisələr tərəfindən yeniliklərə adekvatlıq;
- satış bazarları haqqında informasiyalar;
- istehsal subyektlərində innovasiyalara tələb.

Digər səbəblər kimi innovasiya fəaliyyətini tənzimləyən və həvəsləndirən qanunvericilik və normativ-hüquqi sənədlərini, innovasiya prosesinin əhatə etdiyi dövrü, innovasiya infrastrukturunu, texnologiyalar bazarının fəaliyyətinin səmərəliliyini, innovasiya bazarında rəqabəti və innovasiya və istehsal müəssisələri arasındakı qarşılıqlı əlaqəni qeyd etmək olar (cədvəl 1).

**Cədvəl 1**

**Aqrar sahədə innovativ fəaliyyətə təsir edən amillər**

| İqtisadi amillər | İstehsal amilləri | Digər səbəblər |
|---|---|---|
| innovasiya tətbiqi üçün subyektlərin daxili vəsaitləri | müəssisənin innovasiya potensialı | innovasiya fəaliyyətini tənzimləyən və həvəsləndirən qanunvericilik və normativ-hüquqi sənədlər |
| dövlət tərəfindən maliyyə yardımları | ixtisaslı işçilər | innovasiya prosesinin əhatə etdiyi dövr |
| məhsullara ödəniş qabiliyyətli tələbat | yeni texnologiyalar haqqında informasiya | innovasiya infrastrukturu |
| yeniliklərin dəyərinin səviyyəsi | müəssisələr tərəfindən yeniliklərə adekvatlıq | texnologiyalar bazarının fəaliyyətinin səmərəliliyi |
| iqtisadi risklər | satış bazarları haqqında informasiyalar | innovasiya bazarında rəqabət |

| | | |
|---|---|---|
| bəzi məhsullar üzrə xərclərin ödənilməsi müddətlərinin uzun dövrü əhatə etməsi | istehsal subyektlərində innovasiyalara tələb | innovasiya və istehsal müəssisələri arasındakı qarşılıqlı əlaqə |

**Qeyd:** Cədvəl müəllif tərəfindən tərtib olunmuşdur

Beləliklə, aqrar sahədə innovativ fəaliyyətə təsir edən amillər nəzərə alınmaqla innovativ layihələrin işlənib hazırlanması mərhələlərində elmi-texniki və bazar şərtləri əsasında müvafiq iqtisadi hesablamalar aparılır, gözlənilən mənfəətin dəyəri müəyyən edilir və onun iştirakçılar arasında bölüşdürülməsi həyata keçirilir.

Məlumdur ki, aqrar sahədə innovativ layihələrin həyata keçirilməsi əsas və dövriyyə kapitalına böyük həcmli real investisiyalar tələb edir. Bu onu göstərir ki, innovasiyalardan istifadə və investisiya qoyuluşları arasında əhəmiyyətli əlaqə mövcuddur [5, s. 27]. Aqrar sahədə innovativ fəaliyyətə təsir edən amilləri cədvəl 1-də verilən formada təsnifləşdirmək olar.

**Aqrar sahədə innovasiya strategiyası**

Aqrar sahədə innovasiya strategiyasının həyata keçirilməsi bu strategiyanın formalaşdırılması və reallaşdırılması ilə bağlı səlahiyyətlərin, vəzifələrin bölüşdürülməsi, zəruri fəaliyyətlərin əlaqələndirilməsini nəzərdə tutan tədbirlər kompleksini əhatə edir. İnnovasiya strategiyasının həyata keçirilməsi aqrar sahənin innovativ inkişaf perspektivlərinin qiymətləndirilməsinin əsas üsullarını ehtiva edir. İqtisadi ədəbiyyatda həmin üsullara aşağıdakılar daxil edilir:

- texnoloji audit, biznes planlaması;
- büdcə sistemi;
- iqtisadi təhlilə əsaslanan idarəetmə sistemi;
- kənarlaşmaların təhlili;
- balanslaşdırılmış üsullar və s.

İnnovativ inkişaf perspektivlərinin qiymətləndirilməsinin texnoloji auditi, aqrar subyektlərdə həyata keçirilən proseslərin və istifadə olunan prosedurların səmərəlilik meyarları baxımından yoxlanılması və nəzarət edilməsini ehtiva edir.

İnnovativ inkişaf strategiyasının həyata keçirilməsinin tərkib hissəsi kimi, bu metodoloji yanaşma innovativ audit də adlandırılır. İnnovasiya strategiyasının həyata keçirilməsi fəaliyyətin ümumi effektivliyini müəyyən etməklə məqsədlərlə birbaşa əlaqəli olmayan innovasiya sahələrini nəzərə almağa imkan verir. Eyni zamanda səmərəliliyə çoxmeyarlı yanaşma müxtəlif sahələrdə məqsədlərə nail olmağın müxtəlif mərhələlərində fəaliyyət nəticələrinin fərqini nəzərdə tutur. Əslində, strategiyada komponentlərin seçilməsi idarəetmənin vəzifəsidir və hər bir komponent üçün məqsədlərin, göstəricilərin və perspektivlərin strategiyası ilə əlaqəli şərtlərə riayət etməyi tələb edir: İnkişaf etmiş innovativ fəaliyyət göstəriciləri əsasında innovativ inkişaf strategiyasının həyata keçirilməsini təmin etmək məqsədilə strateji idarəetmə sistemində hər bir fərdi komponent üçün vəzifələrin yerinə yetirilməsi ilə bağlı məsuliyyət sahəsinin yaradılması tələb edilir. Beləliklə, nəzərdə tutulmuş məqsədlərin yerinə yetirilməsinə nəzarət etmək üçün zəruri olan göstəricilər müəyyən edilir [3].

Innovasiya strategiyasının həyata keçirilməsinin ümumi istiqaməti bir komponentdən digər komponentə "yuxarıdan aşağıya" keçir, aşağı səviyyələrin göstəricilərinə çatmaqla yuxarı səviyyələrin göstəricilərinə nail olunur. Strateji nəticələr və onların əldə edilməsinin əsas amilləri əlaqələndirilir, onlar arasında səbəb-nəticə əlaqəsi qurulur və izlənilir. İnnovativ məqsədlərə nail olmaq üçün bir çox amillər ənənəvi yollarla müəyyən edilməyən qeyri-maliyyə göstəriciləri vasitəsilə təsvir edilir və maliyyə nəticələri ilə əlaqələndirilmir. Beləliklə, innovasiya strategiyasının kimponentləri aşağıdakı üstünlüklərə malikdir:

- innovasiya sahələri ilə əlaqəli olan bir neçə göstəricilər cəmləşdirilir;
- innovativ inkişaf məqsədlərinə nail olmaq üçün innovasiya fəaliyyəti korporativ səviyyədə təkmilləşdirilir;

- hər bir komponentdə məqsədlər, göstəricilərin hədəf dəyərləri və bu dəyərlərə nail olunur [6].

Qeyd edilənlər maraqlı tərəflərin məqsədlərinin innovasiya strategiyasına inteqrasiyasını təmin edir. Aqrar sahədə innovativ strategiyanın həyata keçirilməsi prosesində ən vacib və texniki cəhətdən mürəkkəb məsələ bu prosesdə bir-biri ilə əlaqəli komponenlərin əsas meyarlarının nəzərə alınmasıdır. Bu meyarlar aşağıdakı komponentlərdən ibarətdir:

- maliyyə;
- marketinq;
- inkişaf.

Qeyd edilən komponentlərin seçimi aşağıdakı iki əsas meyara cavab verməlidir:

1. Məqsədlərin qoyulması aydın və konkret olmalı, nəzarət oluna bilən kəmiyyət göstəriciləri ilə xarakterizə olunmalıdır.
2. Kəmiyyət göstəricilərinin mövqeyi və strateji rəqiblərin mövqeyi ilə əlaqəyə əsaslanmalıdır.

Innovativ inkişaf strategiyasının həyata keçirilməsi mexanizminin ümumi fəaliyyətə iqtisadi təsirində əsas məqsəd strateji qərarların qəbulu üçün müddətin azaldılmasını təmin etmək, habelə onların etibarlılığını və səmərəliliyini artırmaqdır ki, bu da, əsasən, həmin göstəricilərin nə dərəcədə aydın və obyektiv müəyyənləşdirilməsindən asılıdır.

**Nəticə**

Araşdırmalar göstərir ki, innovasiya yönümlü iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi üçün aşağıdakı şərtlərin mövcudluğu zəruridir: əhəmiyyətli maliyyə resursları; aktiv yeniliklər; ciddi araşdırmalar; yeni ideyalara meylli idarəetmə; risklərin effektiv şəkildə idarə edilməsi və s.

Beləliklə, innovasiyaya ictimai və iqtisadi inkişafı təmin edə biləcək ən əhəmiyyətli vasitələrdən biri kimi də baxmaq olar. Aqrar sferada innovasiyalar vasitəsilə yalnız istehsala istiqamətlənmiş fəaliyyətin artırılması deyil, təbii ehtiyatların səmərəli istifadəsini təmin etmək mümkündür. İqtisadi və ekoloji şərtlərdən asılı olaraq, innovasiyalar vasitəsilə istehsal olunan məhsulların emalı, qablaşdırılması, saxlanması, çatdırılması, paylanması və bu kimi digər tədbirlərdə yüksək səmərə əldə etmək mümkün olur. Nəticədə kənd təsərrüfatında texnologiyaların istifadəsi iqtisadi proseslərlə birlikdə istehsal prosesini təmin edərək dayanıqlı inkişafı təmin etmək iqtidarına malik olur. Texnologiya istifadəsinin və innovasiyanın yekun təsiri də kənd təsərrüfatının bütün sahələrinin inkişafı təmin edilir.

Araşdırmalar göstərir ki, aqrar sahədə innovativ inkişaf strategiyasının həyata keçirilməsi mexanizmi, innovativ inkişaf və təşkilati tədbirlərin effektivliyi üçün alternativ strateji həlləri qiymətləndirmək imkanı yaradır. aqrar sahədə innovasiya strategiyasının reallaşdırılması mexanizminin və innovasiya potensialının inkişaf etdirilməsinin zəruriliyi əsaslandırılmışdır;

- innovasiya strategiyasının reallaşdırılmasına sistemli yanaşmanın əhəmiyyəti əsaslandırılmışdır;
- aqrar sahədə innovasiya fəaliyyətinin strukturlaşdırılmasında innovasiyalardan daha səmərəli istifadə imkanları müəyyən edilmişdir;
- innovasiya fəaliyyətinin səmərəli təşkili ilə bağlı əsaslandırılmalar aparılmışdır;
- aqrar sahədə innovasiya strategiyasının reallaşdırılmasıistiqamətləri müəyyən edilmişdir.

## İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2019-cu il tarixli Sərəncamı
2. İsgəndərov R.K. Elmi-texniki tərəqqi: sosial-iqtisadi aspektlər. Bakı: Elm və təhsil, 2010, 636 s.
3. Малыхина М.Е. Организация и планирование инновационной деятельности на предприятии / М.Е.Малыхина // Результаты современных научных исследований и

разработок: сборник статей IX Всероссийской научно-практической конференции, Пенза, 15 апреля 2020 года. – Пенза: «Наука и Просвещение» (ИП Гуляев Г.Ю.), 2020. – С. 38-41

4. Меньшикова Г.А., Миронова А.А, Пруель Н.А. Оценка регулирующего воздействия как общественная экспертиза управленческих решений // Вестник Санкт-Петербургского университета. Сер.12, вып. 3, 2016. С. 101-117

5. Резниченко С.С., Андреев С.Ю. Развитие аграрного сектора экономики на основе инноваций // Молодой ученый. 2016. № 8. С. 27-28

6. Пацукова И.Г. Инновационная деятельность в АПК // Проблемы современной экономики. 2014. № 17. С. 135-139

## ECONOMIC BASIS AND STRATEGY OF INNOVATIVE DEVELOPMENT OF AGRARIAN FIELDIMPLEMENTATION MECHANISM

**M.Rahimova**
Mingachevir State University
doctoral student of Azerbaijan State Agrarian University

***Abstract:*** *Implementation of innovative strategies in the agro-industrial complex involves the coordination of necessary activities associated with the formation and implementation of this strategy, a systematic approach to the process. The content of the system approach to the implementation of innovation strategies consists of a comprehensive understanding of innovation activities, the definition and structuring of key goals and objectives, the mechanism for achieving the goals set. In this process, a special value is the assessment of the effectiveness of the innovation strategy.*

***Keywords:*** *innovative potential, demand, quality, infrastructure, modernization, efficiency, innovation strategy, efficiency, assessment*

## ЭКОНОМИЧЕСКИЕ ОСНОВЫ И СТРАТЕГИЯ ИННОВАЦИОННОГО РАЗВИТИЯ АГРАРНОЙ ОТРАСЛИ МЕХАНИЗМ РЕАЛИЗАЦИИ

**М.Ф.Рахимова**
Мингячевирский государственный университет
докторант Азербайджанского государственного аграрного университета

***Резюме:*** *Реализация инновационной стратегии в агропромышленном комплексе предполагает координацию необходимых мероприятий, связанных с формированием и реализацией этой стратегии, системный подход к процессу.Содержание системного подхода к реализации инновационной стратегии состоит из комплексного понимания инновационной деятельности, определения и структурирования ключевых целей и задач, механизма достижения поставленных целей. В этом процессе особое значение имеет оценка эффективности инновационной стратегии.*

***Ключевые слова:*** *инновационный потенциал, спрос, качество, инфраструктура, модернизация, эффективность, инновационная стратегия, эффективность, оценка*

**Elmi redaktor: i.e.d., dos. O.Səmədova**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 10.02.2023**
**Çapa qəbul edilib:17.02.2023**